# Ukraynanın faşizm işğalından azad edilməsində fərqlənən azərbaycanlı veteranlara medallar təqdim olunub



Mayın 13-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində Böyük Vətən müharibəsində Ukraynanın faşizm işğalından azad olunmasında iştirak edən azərbaycanlı veteranlarla görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Ukraynanın ölkəmizdəki səfiri Aleksandr Mişenko çıxış edərək Böyük Vətən müharibəsində azərbaycanlıların qəhrəmanlıqlarından danışıb. Bildirib ki, Ukraynanın faşist işğalçılarından azad edilməsində xidmətləri olan 316 azərbaycanlı veteran Prezident Petro Poroşenkonun sərəncamı ilə medallarla təltif olunub. Ukraynada Azərbaycanın və azərbaycanlıların çox sevildiyini, ölkələrimiz arasında yaxşı əlaqələrin olduğunu vurğulayan diplomat veteranları təbrik edib, onlara uğurlar arzulayıb.

Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayev deyib ki, Azərbaycan və Ukrayna xalqları arasında dostluq əlaqələri inkişaf edir. Azərbaycanın 416-cı milli diviziyası Taqanroq şəhərini azad edib, digər şəhərlərdə də qəhrəmanlıqlar göstərib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov bildirib ki, Böyük Vətən müharibəsində Azərbaycan xalqı rəşadət, böyük qəhrəmanlıq nümayiş etdirib, həm arxa cəbhədə, həm də ön cəbhədə qələbənin əldə olunmasına öz xidmətlərini göstəriblər. Veteranlarımız Böyük Vətən müharibəsinin cəbhələrində döyüşlərdə iştirakları, göstərdikləri qəhrəmanlıqlar ilə Azərbaycan xalqının nəyə qadir olduğunu bütün dünyaya sübut ediblər. Azərbaycan faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salıb. Onların təxminən yarısı döyüş meydanlarından geri qayıtmayıb. Müharibə illərində göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı “Sovet İttifaqı Qəhrəmanı” adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan milli atıcı diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib. Azərbaycanlılardan təşkil edilən diviziyaların keçdiyi döyüş yolunun böyük bir hissəsi Ukraynanın faşizm işğalından azad edilməsinə aiddir. Belə ki, 77-ci, 223-cü, 271-ci, 416-cı diviziyalar və şəxsi heyətinin 70 faizi azərbaycanlılardan ibarət olan 227-ci diviziya Ukraynanın faşizm işğalından azad edilməsi uğrunda döyüşüblər.

A.Rəhimov, həmçinin ölkəmizdə veteranlara göstərilən diqqət və dövlət qayğısından da danışıb.

Tədbirdə Ukraynanın işğaldan azad olunması haqqında film nümayiş etdirilib.

Sonra veteranlara medallar təqdim olunub.

AZƏRTAC